Azərbaycan milli kitabxanası

**XXXIII Yay Olimpiya Oyunlarına 3 gün qalır**

AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.com
www.olimpnews.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 18 (1603), 23 - 29 iyul 2024-cü il

Qəzet 2001-ci ildən çıxır.




# Azərbaycan Paris-2024 Yay Olimpiya Oyunlarına 48 idmançı ilə yollanır

*İyulun 26-da Fransanın paytaxtı Parisdə planetin ən mötəbər idman yarışı olan XXXIII Yay Olimpiya Oyunlarına start veriləcək. Dördilliyin zirvə yarışında Azərbaycan idmançıları da mübarizə aparacaqlar. Bu, Müstəqil Azərbaycan idmançılarının Olimpiya Oyunlarındakı səkkizinci cəhdi olacaq. Azərbaycan komandası Paris-2024-də 15 idman növü üzrə 48 idmançı ilə 17 proqramda təmsil olunacaq. Güləşdə 12 (sərbəst güləş - 6, yunan-Roma güləşi - 5, qadın güləşi - 1), cüdoda 9, gimnastikada 7 (bədii gimnastika fərdi - 1, batut gimnastikası - 1, bədii gimnastika qrup çoxnövçülük - 5), boksda 5, basketbolda 4, badmintonda və üzgüçülükdə isə 2 idmançı Paris Olimpiadasında iştirak edəcək. Atletika, qılıncoynatma, taekvondo, atıcılıq, triatlon, avarçəkmə və kamandan oxatma yarışlarında isə bir idmançımız qüvvəsini sınayacaq.*

*Paris Olimpiadasına avqustun 11-də yekun vurulacaq.*